

# Azərbaycanın şəhərsalma və memarlıq irsi zəngin mədəni-tarixi təcrübəyə əsaslanır

**Azərbaycanda "Şəhərsalma və Memarlıq İli"nin elan edilməsi ölkənin sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsidir. Bu təşəbbüs memarlıq və tikinti sahəsinə diqqətin artırılması ilə yanaşı, urbanizasiya proseslərinin müasir çağırışlara uyğun şəkildə tənzimlənməsi baxımından strateji əhəmiyyət daşıyır.**

*Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Könül Nurullayeva deyib.*

O qeyd edib ki, Azərbaycanın şəhərsalma və memarlıq irsi minilliklər boyu formalaşan zəngin mədəni-tarixi təcrübənin nəticəsidir. Bu irs Şərq və Qərb memarlıq ənənələrinin sintezini, iqlim, coğrafiya və həyat tərzinə uyğun planlaşdırma yanaşmalarını özündə əks etdirir. Onun sistemli şəkildə inkişafında və yeni mərhələyə yüksəlməsində isə Ümummilli Lider Heydər Əliyev mühüm rol oynayıb. "Ulu Öndərin ölkəyə rəhbərlik etdiyi illərdə formalaşan memarlıq məktəbi milli memarlıq ənənələrinin qorunması ilə müasir şəhərsalma prinsiplərinin uzlaşdırılmasına əsaslanırdı. Tarixi mühitin saxlanılması, memarlıq irsinin mühafizəsi, eyni zamanda, yeni şəhər məkanlarının yaradılması paralel şəkildə həyata keçirilirdi. Bu məktəb milli kimliyin memarlıqda ifadəsi, planlı inkişaf və mədəni davamlılıq baxımından mühüm strateji əhəmiyyətə malikdir", - deyə deputat vurğulayıb.

Könül Nurullayeva son illər ölkəmizdə sürətli iqtisadi inkişaf fonunda şəhərlərin simasının da dəyişdiyinə diqqət çəkib. Onun sözlərinə görə, "Şəhərsalma və Memarlıq İli" bu proseslərin sistemli, planlı və vahid dövlət siyasəti çərçivəsində aparılmasını təmin edəcək. Burada əsas hədəf yalnız müasir tikinti deyil, şəhər mühitinin funksionallığı, estetik görünüşü və ekoloji dayanıqlığının təmin olunmasıdır.

"Xüsusi vurğulanmalı məqamlardan biri Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən genişmiqyaslı yenidənqurma və bərpa işləridir. Azad edilən ərazilərdə sıfırdan qurulan şəhər və kəndlər müasir şəhərsalma prinsiplərinə əsaslanmaqla yanaşı, milli memarlıq ənənələrini də özündə ehtiva edir. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi bu bölgələri innovativ şəhərsalma baxımından nümunəvi məkana çevirir. Ümumiyyətlə, şəhərsalma və memarlıq ölkənin sosial, iqtisadi və mədəni inkişafının formalaşmasında həlledici rol oynayır. Bu xüsusda deyə bilərik ki, şəhərsalma və memarlıq davamlı inkişafın və dövlət siyasətinin strateji vasitəsidir. "Şəhərsalma və Memarlıq İli" Azərbaycanın keçmişinə hörmət və gələcəyə yönələn dayanıqlı inkişaf konsepsiyasının ifadəsidir. Bu il çərçivəsində görülən işlər ölkənin uzunmüddətli inkişafına əsaslar yaradır", - deyə deputat əlavə edib.